**«Elektron hökumət» portalında xüsusi bölmə yaradılmışdır**

Yeni bölmə «Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin «Elektron hökumət» portalında yerləşdirilməsi Qaydaları»nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 2012-ci il 25 iyun tarixli qərarının icrası ilə əlaqədar yaradılmışdır.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən bildirmişlər ki, «Normativ hüquqi aktlar» bölməsinin yaradılmasında əsas məqsəd layihələri ictimai və ya peşəkar müzakirəyə çıxarmaqdan ibarətdir. Bununla ictimaiyyət nümayəndələrinin və mütəxəssislərin layihələrin müzakirəsində iştirak etmək imkanları böyümüşdür və müzakirələrə qoşulmaq istəyən şəxslər portalda tələb olunan qaydada qeydiyyatdan keçməlidirlər.

Müvafiq irad və təkliflər nəzərə alınmaqla layihələr üzərində dəyişikliklər ediləcəkdir. Müzakirəsi tam başa çatmış layihələrlə əlaqədar bütün məlumatlar arxivləşdirilərək portalda saxlanılacaqdır.